2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan qərar vəhərəkətlərdən (hərəkətsizliklərdən) şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Nailə Əsgərovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 sentyabr 2024-cü il tarixli 76 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 14 avqust 2024-cü il

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 22 saylı Nəsimi – Yasamal seçki dairəsi üzrə qeydə alınmış namizəd Ismayilov Cahandar Cahangir oğlu 2024-cü il sentyabrın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissyasına yazılı müraciət edərək, seçki günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, dairə seçki komissiyasının 9 sentyabr 2024-cü il tarixli 20/52 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsi və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız sayılması barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Nailə Əsgərova 22 saylı Nəsimi – Yasamal seçki dairəsi üzrə qeydə alınmış namizəd Cahandar Ismayilovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 sentyabr 2024-cü il tarixli 76 saylı şikayətini nəzərdən keçirərkən müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrində nəzərdə tutulan müddətdə və qaydada verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Namizəd C.C.İsmayılov müraciətinə bir ədəd elektron informasiya daşıyıcısı və bir ədəd məntəqə seçki komissiyası protokolunun qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiqlənməmiş surətini əlavə edərək səsvermə günü 22 saylı Nəsimi – Yasamal seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının baş verdiyini, dairə seçki komissiyasının üzvləri tərəfindən lider namizədin xeyrinə aşağı seçki komissiyalarına təsir olunduğunu iddia etmiş və seçki dairəsi üzrə seçkilərin etibarsız sayılmasını, həmçinin dairə seçki komissiyasına eyni məzmunlu müraciəti ilə bağlı həmin komissiyanın qəbul etdiyi qərarın ləğv olunmasını xahiş etmişdir.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırmada iştirakı təmin olunmuşdur. Ərizəçi Komissiyanın iclasında iştirak etməkdən imtina etmişdir.

İddia edilən pozuntularla əlaqədar olaraq namizəd C.C.İsmayılovun şikayəti 22 saylı Nəsimi – Yasamal seçki dairəsinin dairə seçki komissiyası tərəfindən araşdırılmış, dairə seçki komissiyasının 9 sentyabr 2024-cü il tarixli 20/52 saylı qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır. Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, aparılan araşdırma ilə səsvermə günü 22 saylı Nəsimi – Yasamal seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia olunan qanun pozuntuları təsdiqini tapmamış, səsvermənin keçirilməsi və nəticələrin müəyyənləşdirilməsi zamanı seçicilərin iradəsini sərbəst şəkildə ifadə etməyə imkan verməyən qanun pozuntuları aşkar edilməmişdir.

Araşdırma zamanı dairə seçki komissiyasından mübahisələndirilən qərarın qəbul edilməsi üçün əsas götürülmüş sənədlər tələb olunaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır. Araşdırma ilə əlaqədar həmin seçki dairəsi üzrə qeydə alınmış digər namizədlərdən izahatlar alınmışdır. İzahatlarda səsvermə günü səsvermə prosesi, səslərin sayılması və nəticələrin müəyyən edilərək protokolların tərtib edilməsində seçki qanunvericiliyinin tələblərinə riayət edildiyi göstərilmişdir.

Müraciətin hərtərəfli və qərəzsiz araşdırılması məqsədilə səsvermə günü sosial

şəbəkələrdə həmin seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı yayımlanmış görüntülərə, həmçinin müraciətə əlavə edilmiş bir ədəd elektron məlumat daşıyıcısına baxış keçirilmiş və səsvermə günü 22 saylı Nəsimi – Yasamal seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən hallar aşkar edilməmişdir.

Araşdırma prosesində müəyyən edilmişdir ki, namizəd C.C.İsmayılovun səsvermə günü baş verməsi iddia edilən qanun pozuntuları ilə əlaqədar müraciətinə dairə seçki komissiyası qanunla nəzərdə tutulmuş qaydada və müddətdə baxmış, o cümlədən maddi və prosesual hüquq normalarını düzgün tətbiq etməklə əsaslandırılmış qərar qəbul etmişdir.

Göstərilənlərə əsasən hazırki şikayətin təmin edilməsi və dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi üçün hüquqi əsaslar müəyyən edilmədiyindən 22 saylı Nəsimi – Yasamal seçki dairəsi üzrə qeydə alınmış namizəd C.C.İsmayılovun müraciəti əsassız hesab olunaraq təmin edilməməli, həmin dairə seçki komissiyasının 9 sentyabr 2024-cü il tarixli 20/52 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 22 saylı Nəsimi – Yasamal seçki dairəsi üzrə qeydə alınmş namizəd İsmayılov Cahandar Cahangir oğlunun 10 sentyabr 2024-cü il tarixli 76 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin seçki dairəsi dairə seçki komissiyasının 9 sentyabr 2024-cü il tarixli 20/52 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Nailə Əsgərova